**Teymur Kərimli**
*akademik*

## "Molla Nəsrəddin" – 10 cildliyinin VIII cildinə ön söz

1906-1931-ci illərdə müəyyən fasilələrlə Azərbaycanın mütəfəkkir yazıçı-dramaturqu və publisisti Mirzə Cəlil Məmmədquluzadənin (1869-1932) baş redaktorluğu ilə Tiflisdə, Təbrizdə və Bakıda nəşr edilmiş "Molla Nəsrəddin" jurnalı təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası və İslam şərqi üçün misilsiz əhəmiyyət daşıyan, irəli sürdüyü kəskin sosial-psixoloji, iqtisadi-siyasi, mədəni-mənəvi, humanitar problemlərlə, həqiqi sənət əsəri olan nəsr və nəzm örnəkləri ilə bu gün də aktuallığını itirməyən şəkilli satirik bir toplu olmuşdur.

Əksər nömrələri ərəb əlifbası ilə işıq üzü görən bu jurnal Azərbaycanda gedən əlifba islahatları ilə bağlı olaraq, əski əlifbanı bilməyən həmvətənlərimiz, xüsusən gənc nəsil üçün əlçatmaz olduğundan, onun milli-mənəvi dəyər kimi çağdaş nəslə çatdırılmasına ehtiyac yaranmışdır, bu səbəbdən də Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Mətnşünaslıq şöbəsində keçən yüzilliyin ikinci yarısından etibarən uzun illər boyu jurnalın tam mətni ərəb əlifbasından kiril əlifbasına transfoneliterasiya edilmişdir.

Sovet hökümətinin Azərbaycanın klassik irsinə məlum münasibəti nəticəsində 12 cilddə çapı nəzərdə tutulan bu jurnalın yalnız bir cildi kiril əlifbası ilə işıq üzü görmüş, Moskvanın qarət etdiyi təbii sərvətlərimizdən vəsait ayrılmadığına görə makinadan çıxmış əlyazması uzun illər Ədəbiyyat İnstitutunun dəmir seyflərində toz-torpaq içində yatıb qalmışdır.

Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra gənc dövlətin qarşılaşdığı maliyyə çətinliklərinə baxmayaraq, 1996-2011-ci illər ərzində jurnalın tam mətni latın qrafikalı Azərbaycan əlifbası ilə 8 cilddə 700 nüsxə sayda, nəfis şəkildə rəngli illüstrasiyalarla çap edilmiş və mollanəsrəddinsevərlərin istifadəsinə verilmişdir. Əlbəttə, əhalisi artıq 10 milyona yaxınlaşan, 100 minlərlə ziyalı ordusuna, vətənpərvər, millətsevər gənclərə malik olan suveren Azərbaycan üçün və xaricdə yaşayan on milyonlarla azərbaycanlılar üçün bu rəqəmin çox cüzi olduğu heç kimə sirr deyildir. Bu səbəbdən də "Şərq-Qərb" nəşriyyatının vətənpərvərlik missiyası sayəsində jurnalın 10 cilddə yeni nəşrinin həyata keçiriiməsi qərara alınmışdır.

Oxucuların diqqətinə təqdim edilən VIII cildə 1926-cı ilin 11-52-ci, 1927-ci ilin 1-38-ci sayları-cəmi 80 nömrə salınmışdır.

Türk dünyasında möhtəşəm hadisə kimi tarixə düşən I Türkoloji Qurultayın keçirildiyi və bütün türk xalqlarının latın qrafikalı əlifbaya keçməsinin qərara alındığı bu ildə də "Molla Nəsrəddin" jurnalı ərəb əlifbası ilə çıxmaqda davam etmişdir. Ancaq, əslində, artıq bu əlifbanın "aqoniyası" (məhvi) başlanmışdı ki, bunu da 1926-cı ilin 11-ci sayındakı yoldaşlıq şarjı çox gözəl ifadə etmişdir.

Azərbaycan o dövrdəki dövlət başçılarından biri olan Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri Səməd Ağamalıoğlu papağını çıxararaq bir qəbir daşının önündəki sinə daşının üstündə oturmuşduq. Başdaşında "Ərəb əlifbasının qəbri" sözləri yazılmışdır. Ağamalıoğlu üzünü başdaşına tutub "dərin hüznlə" deyir: "Həmişəlik olaraq yat, yerin rahat olsun. Heç nigaran qalma, sənin üçün matəm saxlarıq, hətta ehsan da verərik".

Həmişə olduğu kimi, bu illərdə də "Molla Nəsrəddin", müasir terminlə desək, bir maqnit-rezonans tomoqrafi kimi cəmiyyətin ağrılı orqanlarını tutub, sözlə də olsa, bu ağrını yüngülləşdirməyə çalışır. Keçən yüzilliyin 20-ci illərinin ortalarından başlayaraq, 1937-38-ci illərdə dəhşətli repressiyalara qədər inkişaf edən "təmizləmə"("çistka") problemləri jurnalın yaradıcı heyətini ciddi düşündürən və müvafiq reaksiyaya səbəb olan mövzulardan biri kimi nəzərə çarpır.

Görkəmli yazıçımız Əbdürrəhim bəy Haqverdiyevin "Həkim Nuni-Səğir" imzası ilə təqdim etdiyi "Marallarım" hekayəsi də məhz 1926-cı ildən başlayaraq jurnalın səhifələrini bəzəyib.

Bolşevik hakimiyyətinin ilk onilliklərində çox kəskin və radikal şəkildə qoyulan "amansız sinfi mübarizə" anlayışını "Molla Nəsrəddin" mexaniki olaraq və birmənalı şəkildə qəbul etmirdi. Jurnalda gedən materiallardan aydın olur ki, burada sinfi mənsubiyyətindən daha çox, insani mənsubiyyətə diqqət ayrılır, insanda insanlığın tərbiyəsinə xüsusi fikir verilir. Bu özünü kapitalist və qolçomaqların ifşası ilə yanaşı, kommunist və komsomolçuların ifşasında da bariz şəkildə göstərir. Sözdə bolşevizmin sülh, ədalət, insansevərlik prinsiplərini bəh-bəhlə qəbul edib, həyatda bunların tam əksinə davranan bolşevik və komsomolçular xüsusilə kəskin tənqid hədəfinə çevrilir. Bəzən bu məqsədlə hətta başqa sovet respublikalarında və mərkəzdə nəşr olunan satirik mətbu orqanlardan da iqtibaslar verilir. 1926-cı ilin 11-ci sayında "Komaradan" verilən "Tarla qaracası" adlı karikaturun altında bu sözləri oxuyuruq:

"Komsomolam, yatıram tüfürməklə, dururam söyüşlə, otururam tüfürməklə, qalxıram söyüşlə, iclasa gedirəm tüfürməklə, çıxıram söyüşlə, yazıram tüfürməklə, pozuram söyüşlə!"

Bunun ardınca Mollanın reaksiyası bildirilir:

"Molla Nəsrəddin: - Ay səni görüm "çistka"ya düşəsən!"

Tarix göstərdi ki, "çistka"ya belələri yox, təmiz insanlar düşdülər və bu ədalətsizliyə görə də tarix quruluşun özündən intiqam alıb onu darmadağın etdi...

Jurnalda az-az rast gəlinən, ancaq maraq doğuran mövzulardan biri də sənət, ədəbiyyat, estetik problemlər barədə satirik-nəzəri düşüncələrin əks olunmasıdır. Bu baxımdan 1926-cı ilin 12-ci sayında "Molla Nəsrəddin" imzası ilə baş məqalə yerində verilən "Sənət və ədəbiyyat" felyetonu maraq doğurur. Əziz Şərifin "Kommunist" qəzetində çap olunmuş "Sənət və ədəbiyyat" məqaləsində satirik cavab olan bu felyetonda Molla Nəsrəddin (Mirzə Cəlil) gözəlliyə yanaşmada sinfi mövqe sərgiləməyi lağa qoyur, bunun kökündən yanlış olduğuna işarə vurur.

"Şəhər əsnafının qadın barəsində arzu etdikləri gözəllik ibarətdir məhz yoğun baldırdan və ağ yağlı bədəndən. Çünki şəriət də belə buyurur..."

Bu ağır keşməkeşli illərin bir xüsusiyyəti də Molla Nəsrəddinin (Mirzə Cəlilin) baş məqalələrdə quruluşu boğazdan yuxarı tərifləməkdən qaçmasıdır. Şübhəsiz, elə bu səbəbdəndir ki, 1927-ci ilin birinci sayındakı "İyirmi ikinci il" adlı baş məqalənin baş redaktoru özü deyil, Məşədi Sijimquludur (Əli Nəzmi). Bu isə böyük vətənpərvər ədibin inqilabın ilk illərində yaşanılan kütləvi eyforiyadan çox tez ayıldığını, quruluşun çürüklüyünü yüksək həssaslığı ilə dərk etdiyini göstərir.

Bütün bu sadalananlar "Molla Nəsrəddin" jurnalının müasir dövrümüzdə də öz aktuallığını və əhəmiyyətini saxladığını sübut edir.